# HEPAXOL

**Damcı 30 ml**

**Tərkibi:**

| **Təsiredici maddələr:** | **1 ml (20 damcı)** | **10 ml (200 damcı)** | **10 damcı** |
|---|---|---|---|
| Sarıkök (*Turmeric)* | 1,12 mq | 11,2 mq | 0,56 mq |
| Dərman zəncirotu (*Dandelion*) | 0,93 mq | 9,3 mq | 0,46 mq |
| Dərman pişikotu (*Valeriana officinalis*) | 0.56 mq | 5,6 mq | 0.28 mq |
| İstiotlu nanə (*Mentha piperita*) | 0.45 mq | 4,5 mq | 0.22 mq |
| Dəmrovotu (*Chelidonium majus)* | 0,41 mq | 4,1 mq | 0,20 mq |
| Ənginar (*Artichoke)* | 0.26 mq | 2,6 mq | 0.13 mq |

**Xüsusiyyətləri:**

**HEPAXOL** tərkibndəki dərman bitkilərinin kombinasiyası hesabına ödqovucu (xoleretik və xolekinetik), iltihabəleyhinə, köpəleyhinə, hepatoprotektor, spazmolitik təsirlərə malik kompleks preparatdır.

**Sarıkök** *(Turmeric)* tərkibindəki kurkumin hesabına antioksidant xüsusiyyəti toxuma hüceyrələrini toxumada əmələ gələn sərbəst radikallardan qorumaq üçün imkan yaradır. Sarıkök mədə-bağırsaq sistemindəkin iltihabla mübarizə aparır. Ödqovucu (xoleretik və xolekinetik), iltihabəleyhinə, köpəleyhinə, öddə xolesterinin toplanmasını azaltmaqla hepatoprotektor təsir göstərir, qanda şəkərin səviyyəsini normada saxlamağa kömək edir.

**Dərman zəncirotu** *(Dandelion)* taraksasin, triterpen birləşmələr, flavonoidlər, inulin, kalium və maqneziumla zəngin bitkidir. Bu xüsusiyyətinə görə güclü iltihab əleyhinə, ödqovucu, sidikqovucu, hərarətsalıcı, antiallergik, qurdəleyhinə və ödqovucu təsir göstərir və iştahsızlığı, qəbizliyi aradan qaldırır.

**Dərman pişikotu** *(Valeriana officinalis)* sedativ və spazmolitik təsirlərinə görə yuxusuzluq, yüksək sinir oyanıqlığı, kardionevroz, miqren, isteriyalar və qan damarlarının spazmı zamanı yüksək effektivliyə malikdir.

**İstiotlu nanə** *(Mentha piperita)* həzm yolunun saya əzələlərinə spazmolitik təsir göstərir,eyni zamanda ödqovucu və qazqovucu təsirə malikdir.

**Dəmrovotu** (*Chelidonium majus*) tərkibindəki xelidonin hesabına spazmolitik, analgetik və ödqovucu təsir göstərir.

**Ənginar** (*Artichoke*) bioloji aktib maddələr, üzvi turşular, inulin, vitamin və mikroelementlər ilə zəngin olub, hepatoprotektor, detoksikator, xoleretik və xolekinetik xüsusiyyətlərə malikdir. Eyni zamanda hipoxolesterinemik, hipoazotemik və sidikqovucu təsirə də malikdir.

**İstifadəsinə tövsiyələr:**

- Funksional dispepsiya, qəbizlik (mədə-bağırsaq fəaliyyətinin pozulması);
- Zülalların, yağların və karbohidratların mənimsənilməsinin pozulması;
- Mədə-bağırsaq sisteminin infeksion və funksional patologiyaları. Qaraciyərin piy distrofiyası;
- Öd yollarının diskineziyası ilə əlaqəli dispeptik əlamətlər. Daşsız xolesistit, xolangit
- Xronik intoksikasiya (hepatotoksik təsir göstərən dərman maddələri);
- Xronik qaraciyər və böyrək çatışmazlığının kompleks müalicəsi;
- Müxtəlif mənşəli hepatit (infeksion, toksiki və s.);
- Qaraciyər sirrozunun kompleks müalicəsi;
- Dəri xəstəliklərinin (atopik dermatit, neyrodermit, psoriaz və s.) kompleks müalicəsi;
- Hamiləlik xolestazı.

**İstifadə qaydaları və doza:** Böyüklər: 10 damcı gündə 1 dəfə yeməkdən sonra azacıq su ilə qarışdırılaraq qəbul olunur.

**Əks göstərişlər:** Məhsulun tərkibində olan hər hansı komponentinə qarşı həssaslıq.

**Buraxlış forması:** İçlik vərəqə ilə karton qutuya yerləşdirilmiş, 30 ml məhlul-damcı olan flakon

**Yararlılıq müddəti:** 3 il

**Saxlanma şəraiti:** 25°C-dən yüksək olmayan temperaturda, quru və uşaqların əli çatmayan yerdə saxlanılmalıdır.

**İstehsalçı: İlaçsan Medikal Sanayi ve Dış Ticaret Limited Şirketi.**

*GESFRELEB GmbH Almaniya şirkətinin sifarişi əsasında hazırlanmışdır.*

*Beynəlxalq akkreditasiya olunmuş* ***LotusLab*** *laboratoriyası tərəfindən analiz edilmişdir.*

ANIMED